

*Acı da olsa həqiqətdir. İstəsək də, istəməsək də həyatın ədalətsiz qanunları qarşısında həmişə aciz qalırıq. Bizi çulğalamış kədərə bütün varlığımızla üsyan etsək də son məqamda «qismət beləymiş» - deyə taleyimizlə barışmalı oluruq.*

*İndi əvəzsiz dirijor, SSRİ xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət mükafatı laureatı, Beynəlxalq Nehru mükafatı laureatı... böyük Niyazi haqqında təəssüratımı, ürək sözlərimi xatirə şəklində bölüşərkən onun nurlu siması gözlərim önündə canlanır.*

*İnana bilmirəm... İnana bilmirəm ki, orijinal istedada, yüksək musiqi mədəniyyətinə, dərin erudisiyaya, güclü iradəyə malik maestro artıq neçə ildir ki, həyatda yoxdur...*

# İlk ... və son görüş

O vaxt mən Marneuli rayon icraiyyə komitəsinin təlimatçısı idim. Bölgənin elə bir böyük ədəbi, mədəni tədbiri tapılmazdı ki, cəlb edilməyim... 1983-cü ilin mayında rayon partiya komitəsinin birinci katibi R.Memarnişvili məni kabinetinə dəvət etdi: «Vaxtaşırı qəzetlərdə rəngarəng yazıların çıxır. İndi səni ona görə çağırtdırmışam. Qələmini yenə işə salmalısan. Ancaq bir fərq var. Bunu mətbuat üçün deyil, mənim üçün yazacaqsan. Demək, daha ürəkdən işləməlisən. Bildin də... Bu, Niyaziyə layiq çıxış olmalıdır. Unutma ki, bu imtahandan da üzüağ çıxsan... Yaxşı, durma get, qoy bu hələ sirr olaraq qalsın... Yazı sabah saat 11-dək stolumun üstündə olmalıdır...»

Böyük Niyazi haqqında ətraflı məlumatım vardı. Onun «Koroğlu» operasının uvertürasını çaldığının şahidi olmuşdum. Təkcə elə o çalğı ilə maestro mənim nəzərimdə dünyanın ən güclü adamı səviyyəsinə yüksəlmişdi. Bilirdim ki, 71 il əvvəl, 1912-ci ildə Tiflisdə anadan olub. Zülfüqar Hacıbəyovun oğludur. Musiqiçi kimi formalaşmasında Ü.Hacıbəyov, L.Rudolf, P.Ryazanov və başqalarının rolu olub. Azərbaycan Dövlət Simfonik orkestrinin təşkilində fəal iştirak edib. Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının dirijoru, bədii rəhbəri və baş dirijoru, Leninqrad Opera və Balet Teatrının baş dirijoru olub. 1979-cu ildən Azərbaycan Dövlət Filarmoniyasının direktorudur. Onun interpretasiyasında klassik və müasir əsərlər, ideya-emossional məzmunu cəhətdən dolğun, ifadəli və yüksək temperamentlə səslənir. Repertuarında dünya klassiklərinin, xarici ölkə bəstəkarlarının əsərləri mühüm yer tutur. Azərbaycan milli dirijorluq məktəbinin formalaşması, inkişafı məhz onun adı ilə bağlıdır. Çexoslovakiya, Bolqarıstan, Almaniya, Macarıstan, Rumıniya, Monqolustan, Fransa, Türkiyə, İran və başqa ölkələrdə olub...

Maestronun haqqında daha ətraflı məlumat toplamaq üçün kitabxanaya qaçdım, böyük Niyazi haqqında ətraflı material topladım, gecədən xeyli keçənədək çıxış üzərində işlədim və səhər saat 10-da R.Memarnişvilinin yanında oldum. Çıxışa ötəri nəzər salan katib nə düşündüsə tədbir zamanı onunla eyni sırada əyləşməyimi tapşırdı.

... Görüş vaxtı Niyazinin Borçalının həyatı, mədəni-maarif ocaqlarının işi, xalqın güzəranı ilə bağlı suallarına düşünmədən müəfəssəl cavab verməyim məni bircə anda o böyük insanla dostlaşdırdı, doğmalaşdırdı. Çoxdanın tanışları tək xalq mahnılarımızın gözəlliyindən, «Ay bəri bax», «Xumar oldum», «Qaragilə» mahnılarını orkestr




üçün işlədiyindən, Bülbülün konsertindən sonra həmişə ona zəng vurmasından, Hacı Məmmədovun təsirli çalğısından, bir muğam ustası kimi Qədir Rüstəmovdan... söhbət açdı. Hələ maraqlı və lətifəyəbənzər gülməli bir əhvalat da danışdı. Dedi ki, bir dəfə Türkiyəyə getmişdik. «Koroğlu»nun ilk məşqlərindən biri idi. Bir də gördüm ki, orkestr musiqini, taktları yaxşı tuta bilmir.

- Bu nədir, əfəndilər, elə bil çalmağı yadırğamısınız?! – dedim.

Söz ağzımdan yenicə çıxmışdı ki, gözüm başıayağı sarıqlı konsertmeyster və birinci solistə sataşdı. Məlum oldlu ki, avtomobil qəzasına uğrayıblar. Hörmət əlaməti olaraq yaralı halda məşqə gəliblər.

Məsəl var, deyərlər: «Nə qədər ki, söz ağzından çıxmayıb sənin qulundur, elə ki, çıxdı...» Niyazi əmini məgər qul etmək olar?! Amma sözün düzü, çox pis vəziyyətdə qaldım. «Gedin, özünüzü yaxşı hiss edəndə gələrsiniz», - deməyə dilim gəlmədi. Çıxış yolunu zarafata salıb onları «məzəmmət etməkdə» gördüm:

- Yox... yox, əfəndilər, sizin kimi dəlilərlə Koroğlu bəylərin, paşaların... üstünə hücum çəkə bilməz...

Böyük Niyazi ilə həmin gün çox söhbətimiz oldu.

İndi aradan 24 il keçəndən sonra həmin görüşü bütün təfərrüatı ilə xatırlamaq olmur. Onları kiçik bir yazıya sığışdırmaq da mümkün deyil.

Maestro Bakıya yola düşərkən doğma adamlarından ayrılırmış kimi hamı ilə görüşdü. Ən axırda mənim əllərimi sıxdı:

- Bakıya yolun düşəndə mütləq Niyazi əminə baş çəkərsən, - dedi.

Fəqət, iş elə gətirdi ki, bu mənim dahi Niyazi ilə ilk... və çox təəssüf ki, həm də son görüşüm oldu. Bir neçə ay keçmiş növbəti dəfə «imtahandan üzüağ çıxdığım» üçün katib vəzifəmi böyütdü. Təşkilat şöbəsinin müdiri oldum. İş, ailə qayğıları... daha nələr, nələr başımı qatdı.

Niyazinin həyatını, zəngin yaradıcılığını, uğurlarını yalnız qəzetlərdən oxudum, televiziyada gördüm, radiodan eşitdim. Bakıya gələndə isə...

... Dönə-dönə çoxları tərəfindən təkrar edilən «əvəzolunmaz adam yoxdur» - fikrilə heç vaxt razılaşmamışam. Vəzifə başında, məqsəd yolunda kimisə əvəz etmək olar. Ancaq zahiri görkəminə və xarakterinə görə bir-birinə nə qədər bənzəsə də insan həmişə əvəzedilməzdir. Onun itkisindən yaranmış boşluğu başqasının hesabına doldurmaq qeyri-mümkündür... Niyazi kimi şəxsiyyətləri əvəz etmək haqqında düşünmək isə günahdır... cinayətdir... sadəlövhlükdür...

Korifey sənətkarımız, dünyaşöhrətli dirijor, bəstəkar və ictimai xadim, SSRİ xalq artisti (1959), Sosialist Əməyi Qəhrəmanı (1982), dirijorların Ümumittifaq baxışının laureatı (1946), SSRİ Dövlət mükafatı laureatı (1951, 1952), Ü.Hacıbəyov adına Azərbaycan Dövlət mükafatı laureatı (1967), Beynəlxalq Nehru mükafatı laureatı (1972) Niyazi haqqında xatirəni başa vurarkən yubileyi ərəfəsində onun ömür kitabını vərəqləməyi də məqsədəuyğun bildim.

Niyazi Zülfüqar oğlu Tağızadə – Hacıbəyov 1912-ci il avqustun 20-də Tiflisdə anadan olmuşdur. 1926-1931-ci illərdə Moskvada Qnesinlər adına Musiqi Texnikumu, Leninqradda Mərkəzi Musiqi Texnikumu və Yerevan Konservatoriyasında oxumuşdur. 1933-1934-cü illərdə Azərbaycan Dövlət Konservatoriyasının aspiranturasında təhsilini davam etdirmişdir.

Niyazinin musiqiçi kimi formalaşmasında Ü.Hacıbəyov, Q.N.Popov, P.B.Ryazanov, L.M.Rudolf, M.F.Qnesin və başqalarının böyük rolu olmuşdur. Azərbaycan Dövlət Simfonik Orkestrinin təşkilində fəal iştirak etmişdir. 1938-ci ildən fasilələrlə orkestrin bədii rəhbəri və baş dirijoru olmuşdur.

Niyazinin ifaçılıq fəaliyyəti həmçinin Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı ilə



bağlıdır. O, teatrın dirijoru (1937-1948, 1951-1952), direktoru, bədii rəhbəri və baş dirijoru (1958-1959, 1961-1965), 1961-ci ildə isə Leninqrad Opera və Balet Teatrının baş dirijoru, 1979-cu ildən Azərbaycan Dövlət Filarmoniyasının direktoru olmuşdur.




Niyazi bəstəkarlıq və dirijorluq fəaliyyətinə 30-cu illərdən başlamışdır. Orijinal istedada malik sənətkarın dirijorluğu üçün yüksək musiqi mədəniyyəti, dərin erudusiya, güclü iradə səciyyəvidir.

Azərbaycan bəstəkarlarının bir çox simfonik və musiqili səhnə əsərlərinin, kantata və oratoriyalarının ilk ifaçısı olmuş, bu əsərlərin şərh edilməsində özünəməxsus orijinal ifaçılıq üslubu yaratmışdır.

Onun traktovkasında milli bəstəkarların bir çox əsəri, o cümlədən Ü.Hacıbəyovun «Koroğlu» operası dünya musiqisinin qızıl fonduna daxildir. Niyazinin Azərbaycan Opera və Balet Teatrında tamaşaya hazırladığı «Nərgiz» (M.Maqomayev), «Vətən» (Q.Qarayev və C.Hacıyev), «Sevil» (F.Əmirov), «Qaratoxmaq qadın» (P.Çaykovski), «Knyaz İqor» (A.Borodin), «Karmen» (J.Bize), «Bohema» (C.Puççini), «Satılmış gəlin» (B.Smetana) operaları, «Gülşən» (S.Hacıbəyov), «Yeddi gözəl», «İldırımlı yollarla» (Q.Qarayev) baletləri respublikanın həyatında əhəmiyyətli rol oynamışdır.

Niyazi 1961-ci ildə Leninqrad Opera və Balet Teatrında A.Məlikovun «Məhəbbət əfsanəsi» baletinin ilk tamaşasını hazırlamışdır. O burada «Yatmış gözəl» (P.Çaykovski) və «Daş çiçək» (S.Prokofyev) baletlərinin yeni quruluşuna dirijorluq etmiş, həmin baletlərlə «Qrand-Opera» (Paris) və «Kovend-Qarden» (London) teatrlarında qastrol tamaşaları vermişdir. Niyazi həmçinin Anqara Opera və Balet Teatrında «Yevgini Onegin», «Qaratoxmaq qadın» (P.Çaykovski), «Aida» (C.Verdi) operalarına, İstambul Opera və Balet Teatrında türk bəstəkarı Ə.Sayqunun «Koroğlu» operasının ilk tamaşasına və «Yunis İmrə» oratoriyasına dirijorluq etmişdir. Niyazinin ifaçılıq sənəti D.Şostakoviç, Q.Qarayev, K.Sekki, B.Tarcan, V.Dabias və başqa görkəmli musiqiçilər tərəfindən yüksək qiymətləndirilmişdir.

Azərbaycan musiqisində ilk simfonik əsərlərin müəlliflərindən olan Niyazi milli simfonizmin təşəkkülü və inkişafında əhəmiyyətli rol oynamışdır. Onun bir çox xarici ölkələrdə səslənmiş, qramofon valına yazılmış «Rast» (1949) simfonik muğamı dramaturji bitkinliyi, güclü emosional təsiri, zəngin melodiyası, harmonik dilinin əlvanlığı və ifadəliliyilə fərqlənir.

Niyazi həmçinin «Xosrov və Şirin» operasının (1942), «Çitra» baletinin (1961), «Zaqatala süitası» (1934), «Ləzgihəngi» (1939), «Konsert valsı» (1954) və s. simfonik əsərlərinin, iki hissəli proqramlı «Qəhrəmani simfoniya»nın (1944), «Döyüşdə», «Xatirə» fortepiano ilə orkestr üçün konsertin (1945), bir çox mahnıların («Vətən haqqında mahnı», «Təbrizim», «Arzu», «Dağlar qızı», «Ulan-Bator axşamları» və s.), dram tamaşalarına (Ə.Haqverdiyev – «Dağılan tifaq», C.Cabbarlı – «Almaz», S.Vurğun – «Vaqif», A.Korneyçuk – «Polad Qartal»), kinofilmlərə («Almaz», «Kəndlilər», «Fətəli xan», «Mahnı belə yaranır» və s.) yazılmış musiqilərin müəllifidir.

O, «Aşıq Qərib» (Z.Hacıbəyov), «Arşın mal alan» (Ü.Hacıbəyov) və s. əsərlərin yeni redaksiyasını hazırlamış, Azərbaycan xalq mahnılarını («Kəklik», «Qaragilə», «Xumar oldum», «Ay bəri bax», «Küçələrə su səpmişəm» və s.) simfonik orkestr üçün işləmiş, 1935-ci ildə «Rast» və «Şur» muğamlarını nota salmışdır.

**Yaşar HİDAYƏTOĞLU**